Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Tələbə təqaüdlərinin artırılması stimullaşdırıcı haldır

## Yüksək nəticə göstərən abituriyentlər həm Prezident təqaüdü alacaq, həm də aylıq tələbə təqaüdü

**Təhsilə maraq və istəyin artması, məlum məsələdir ki, əlçatanlıqla bilavasitə bağlıdır. Son 30 ildə təhsil sektorunda həyata keçirilən islahatlar məhz bu məqsədə xidmət edir. Təhsilə əlçatanlığın yüksələn xətt üzrə inkişafı da bu islahatlar sırasındadır. Ali məktəblərə dövlət ehtiyaclı plan yerlərinin hər il artırılması, ödənişli təhsil haqlarının da rasionallaşdırılması ali təhsil alanların sayında ildən-ilə artıma səbəb olur. Tələbə təqaüdlərinin artırılması da bu qəbildəndir.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılmasına dair bu günlərdə imzaladığı fərman məhz təhsil alanların sosial vəziyyətini daha da yaxşılaşdırmaqla yanaşı, həm də stimulverici, həvəsləndirici addımdır. Cənab Prezidentin imzaladığı fərmanla 2025-ci il sentyabr ayının 1-dən etibarən Prezident təqaüdünün məbləği 275 manatdan 350 manata qaldırılıb. Bununla da, ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə 350 manat Prezident təqaüdü alacaq. Təbii ki, belə bir qərar tələbələrin böyük sevincinə səbəb olur və onları elmə, biliyə yiyələnməyə daha da həvəsləndirir. Təhsil haqlarının artırılması məsələsi isə gündəmdə deyil və bu da ödənişli ixtisaslara qəbul olunanlar üçün sevindirici xəbərdir. Bu barədə elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli Prezident İlham Əliyevin tələbə təqaüdlərinin artırılması ilə bağlı sərəncamını şərh edərkən jurnalistlərə açıqlamasında deyib. N.Məmmədli qeyd edib ki, təhsil haqlarının artımı ilə bağlı məsələ gündəlikdə deyil. O xatırladıb ki, təhsil haqları Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunur: "Bu dəqiqə üçün, yeni təhsil mövsümünün də başladığı dövrdə bu məsələ ilə bağlı heç bir yeni məlumat yoxdur". N.Məmmədli açıqlamasında SABAH qruplarının fəaliyyəti məsələsinə də toxunub. Qeyd edib ki, SABAH və yeni məzmunlu təhsil qruplarında ixtisasların istiqamətləri də genişləndiriləcək. Əvvəllər daha çox texniki, texnoloji ixtisaslara üstünlük verilirdi. Artıq digər ixtisaslarda təhsil alan tələbələrin də SABAH qrupları kimi yeni məzmunlu təhsil qruplarında təhsil alması təmin ediləcək. Bu da təhsilimizin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində daha mühüm addım olacaq. Yeniliklərdən biri də budur ki, bundan sonra tələbələr birinci kursdan etibarən SABAH qruplarında təhsil ala biləcəklər:

"Bundan sonra artıq tələbələrimiz göstərdikləri akademik müvəffəqiyyətə görə, eyni zamanda, DİM-in keçirdiyi imtahanlarda əldə etdikləri nəticələrə uyğun olaraq müəyyən mərhələdə müsahibə yolu ilə birinci kursdan SABAH qruplarında təhsil ala biləcəklər". N.Məmmədli qeyd edib ki, təxminən 10 ildir ki, Elm və Təhsil Nazirliyi tərəfindən SABAH qrupları layihəsi həyata keçirilir. Bu platformanın daha da genişləndirilməsi nəzərdə tutulur. SABAH və yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin 15 minə çatdırılması proqnozlaşdırılır. "Artıq bu istiqamətdə addımlar atılmaqdadır. İndiyədək bu təhsil proqramlarında 5-7 min nəfər tələbə təhsil alırdı, bu ildən sonra həmin sayın 15 minə çatdırılması nəzərdə tutulur", - deyə o qeyd edib.




Qeyd edək ki, yeni tədris ilinə hazırlıq mərhələsində məktəbəqədər hazırlıq sahəsində canlanma müşahidə edilir. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin məlumatında qeyd olunur ki, regionlarda cari tədris ilində 68 mindən çox, alternativ təlim modelləri vasitəsilə isə 18 mindən çox uşaq məktəbəqədər təhsilə cəlb olunub. Bildirilir ki, məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi qarşıya qoyulan əsas hədəflərdəndir: "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda məktəbəqədər təhsilə cəlb olunmuş uşaqların 1-5 yaşlılara nisbətinin 50 faizə çatdırılması nəzərdə tutulub. Hazırda ölkəmizdə bağça yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunma göstəricisi 38 faiz təşkil edir. Paytaxtla yanaşı, regionlarda da məktəbəqədər təhsil xidmətlərinə marağın artırılması və uşaqların təhsilə cəlb olunma səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər uğurla həyata keçirilir". Agentliyin məlumatında qeyd olunur ki, son illərdə yeni uşaq bağçalarının istifadəyə verilməsi, mövcud məktəbəqədər təhsil müəssisələrinin təmiri və yenidən qurulması işləri davam etdirilir. "Bununla yanaşı, məktəbəqədər təhsil müəssisəsi olmayan ərazilərdə alternativ modellərdən uğurla istifadə olunur ki, bu da regionlarda məktəbəqədər təhsilə cəlb olunmuş uşaqların sayının artmasına imkan yaradır. Regionlarda cari tədris ilində 68 mindən çox, alternativ təlim modelləri vasitəsilə isə 18 mindən çox uşaq məktəbəqədər təhsilə cəlb olunub. Şirvan və Biləsuvarda isə iki özəl məktəbəqədər təhsil müəssisəsi özəl-dövlət tərəfdaşlığı çərçivəsində qrant proqramına qoşulub və bu layihədən 170 uşaq bəhrələnib", - deyə əlavə edilib.

**Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirdi ki, Prezident təqaüdünün məbləğinin artırılması tələbələr üçün böyük stimuldur:**

- Hər il qəbul imtahanlarında yüksək nəticə göstərmiş abituriyentlər Prezident təqaüdünə layiq görülür. Onlar arasında paytaxt məktəblərinin məzunları da olur, region məktəblərinin, hətta ucqar kənd məktəblərinin də. Bu nəticələrə əsasən onu deyə bilərik ki, məsələ paytaxt və ya kənd məktəbləri ilə bağlı deyil. Müəllimin şagirdinə bilikləri nə dərəcə çatdıra bilməsi və şagirdin özünün də əzmi, çalışqanlığı əsasdır. Yüksək nəticə göstərən abituriyentlər həm Prezident təqaüdü alacaq, həm də aylıq tələbə təqaüdü. Məlumdur ki, tələbə təqaüdünün məbləği elə də yüksək deyil, üstəlik, sonrakı mərhələlərdə təqaüdün təyinində semestr imtahanlarının nəticələri əsas götürülür. Hər bir tələbə çalışmalıdır ki, yüksək təqaüd alsın. Bu, tələbənin sosial durumunun yaxşılaşması deməkdir. Hesab edirəm ki, təhsilin əlçatanlığının yüksəldilməsi üçün ödənişli təhsil haqlarının məbləğinə, ödəniş üsuluna mövcud reallıqları nəzərə alaraq yenidən baxmaq lazımdır. Bəzən valideynlər təhsil haqqını birdəfəyə tam ödəmək imkanında olmadığından ödənişli ixtisaslardan imtina edirlər. Halbuki təhsil müəssisələri ödənişləri hissə-hissə də qəbul edə bilər. Bundan təhsil müəssisəsi böyük mənada ziyan çəkməyəcək, amma sosial durumu o qədər də münasib olmayan ailənin övladı ali təhsil almaq imkanı qazanacaq. Bizim məqsədimiz daha çox gəncin ali təhsil alması, o cümlədən müasir dövrün tələbatına uyğun ixtisaslara yiyələnmələrinə nail olmaqdır.

**Məlahət Rzayeva**